İPƏK YOLU, No.1, 2023, səh.5-12

# HEYDƏR ƏLİYEV – 100

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEV AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ VƏ ONUN QURUCULARI HAQQINDA

**Qabil Əliyev**

Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: qabilalioglu1956@gmail.com

**Xülasə.** Məqalədə Heydər Əliyevin ölkəmizin tarixinin çox önəmli və şərəfli səhifəsini təşkil edən Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və onun qurucularına verdiyi yüksək qiymət araşdırılmışdır. Ulu öndər AXC-nin yaranmasını "Azərbaycan xalqının tarixində böyük və əlamətdar bir hadisə", onun yaradıcılarını "xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları" adlandırmışdır.

**Açar sözlər**: Heydər Əliyev, Azərbaycan Xalq Cümhuriyyəti, AXC-nin qurucuları, dövlətçilik tarixi.

### GREAT LEADER HEYDAR ALIYEV ON THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC AND ITS FOUNDERS

**Gabil Aliyev**
*Baku State University, Baku, Azerbaijan*
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract:** The article discusses the high assessment given by Heydar Aliyev to the creation of the Azerbaijan Democratic Republic, which is a very important and glorious page in the history of our country and its founders. The great leader called the creation of ADR "a great and significant event in the history of the Azerbaijani people", and its founders – "prominent figures and thinkers of our people".
**Keywords:** Heydar Aliyev, Azerbaijan Democratic Republic, the founders of the ADR, history of statehood.

### ВЕЛИКИЙ ВОЖДЬ ГЕЙДАР АЛИЕВ ОБ АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКЕ И ЕЕ ОСНОВАТЕЛЯХ

**Габиль Алиев**
*Бакинский Государственный Университет, Баку, Азербайджан*
*Университет Азербайджан, Баку, Азербайджан*

**Резюме:** В статье рассматривается высокая оценка, данным Гейдаром Алиевым созданию Азербайджанской Демократической Республики, что является очень важной и славной страницей в истории нашей страны, и ее основателей. Великий вождь назвал создание АДР «великим и знаменательным событием в истории азербайджанского народа», а его основателей – «видными деятелями и мыслителями нашего народа».
**Ключевые слова**: Гейдар Алиев, Азербайджанская Демократическая Республика, основатели АДР, история государственности.

Respublikamızda hər il mayın 28-də dövlətçilik tariximizin çox önəmli hadisəsi olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının ildönümü təntənə ilə qeyd edilir. Ölkəmizin tarixində olduqca mühüm və şərəfli səhifəsini təşkil edən bu hadisənin ilk dəfə yüksək səviyyədə qeyd edilməsi üçün ulu öndər Heydər Əliyev 1998-ci il yanvarın 30-da AXC-nin 80 illik yübileyinin keçirilməsi haqqında xüsusi fərman imzalamışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il mayın 16-da "Azərbaycan Xalq

Cümhuriyyətinin 100 illik yubileyi haqqında" sərəncam imzalaması, ardınca 2018-ci il yanvarın 10-da imzaladığı başqa bir sərəncamla 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan etməsi bu ənənənin davamı və daha yüksək səviyyəyə ucaldılması olmuşdur.

Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti XX əsrin ikinci onilliyində Vətənimizin qeyrətli oğulları tərəfindən son dərəcə çətin, ağır bir dövrdə, mürəkkəb daxili və xarici maneələri dəf etməklə yaradıldı. Yeni təşəkkül tapan respublikada demokratik prinsiplər bərqərar edildi, Azərbaycanda yaşayan bütün vətəndaşların hüquq bərabərliyi təmin olundu. Qadınlara kişilərlə bərabər seçki hüququ verildi, irqi, milli, dini bərabərsizlikləri ləğv edildi. Qonşu dövlətlərlə sərhədlər müəyyənləşdirildi, dinc və sülh şəraitində yaşamaq, qarşılıqlıfaydalı əməkdaşlıq etmək üçün zəruri addımlar atıldı.

Ana dili dövlət dili elan olundu. Maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi, Azərbaycanın ilk müasir universiteti təsis olundu, təhsil milliləşdirildi, tarixi adlar bərpa edildi.

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyəti tarixinə, onun qurucularının fəaliyyətinə yüksək qiymət vermişdir. Ulu öndər 1996-ci il mayın 26-da Respublika sarayında Azərbaycanın milli bayramı – Respublika günü münasibətilə təntənəli yığıncaqda nitqində AXC-nin yaranmasını ***"Azərbaycan xalqının tarixində böyük və əlamətdar bir hadisə"***, yaradıcılarını ***"xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları"*** adlandırmışdır [1, s.307]. O, nitqində qeyd etmişdir ki, **"Bu cümhuriyyət, hökumət 23 ay ömür sürmüşdür. Ancaq bu qısa zamanda çox böyük işlər görülmüşdür. Ən böyük nailiyyət, tariximizə yazılmış qızıl səhifə ondan ibarətdir ki, çoxəsrlik tariximizdə ilk dəfə Azərbaycan xalqı dövlət müstəqilliyini əldə edə bilmişdir, müstəqillik əhval-ruhiyyəsini hiss edə, dərk edə bilmişdir, müstəqil yaşamaq, öz taleyinin sahibi olmaq duyğularını dərk edə bilmişdir"** [1, s.308].

Heydər Əliyev həmin nitqində AXC-nin yaradıcılarını minnətdarlıqla yad etmişdir**: "Biz Azərbaycan Demokratik Cümhuriyyətinin yaranmasında böyük işlər görmüş, xidmətlər göstərmiş Məmmədəmin Rəsulzadəni, Əlimərdan bəy Topçubaşovu, Fətəli xan Xoyskini, Nəsib bəy Yusifbəyovu və digər dövlət xadimlərini bu gün böyük minnətdarlıq hissi ilə xatırlayırıq və onların xidmətlərinə, Azərbaycan xalqının həyatında, tarixində oynadıqları böyük rola öz hörmət və ehtiramımızı bildiririk"** [1, s.308-309].

Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi 1998-ci il yanvarın 30-da imzaladığı "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında" sərəncamda bu gənc respublikanın yaradılmasını bir daha çox yüksək dəyərləndirmişdir. Sərəncamda qeyd edilmişdir: ***"Bu tarixi gün Azərbaycan xalqının həyatına böyük və əlamətdar hadisə kimi daxil olmuşdur"*** [2, s.3]. Ulu öndər xüsusi vurğulamışdır ki, Azərbaycan Xalq Cümhuriyyəti çox gərgin, ağır və mürəkkəb ictimai-siyasi şəraitdə yaranmış və fəaliyyət göstərmişdir. Tarixən o qədər də uzun olmayan bir müddət – cəmi 23 ay mövcud olmasına baxmayaraq çox böyük və taleyüklü problemləri həll etməyə müvəffəq olmuşdur. Yuxarıda haqqında bəhs etdiyimiz

sərəncamda yazılmışdır ki, Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən "milliyyətindən, siyasi və dini mənsubiyyətindən, cinsindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, dövlət sərhədlərinin müəyyən olunması, Azərbaycan dövlətçiliyi atributlarının qəbul edilməsi, ana dilinin dövlət dili elan olunması Azərbaycanın gələcək müstəqilliyi üçün möhkəm zəmin yaratmışdır" [2, s.3].

Ümummilli lider Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinin, həyata keçirdiyi tədbirlərin geniş ictimaiyyətə obyektiv çatdırılması üçün o dövrün sənəd və materiallarının toplanıb nəşr edilməsinə göstəriş verdi. Prezidentin sərəncamı ilə yaradılmış Dövlət Komissiyasının səyi ilə qısa müddət ərzində 7 kitabdan ibarət sənədlər toplusu çap olundu [3]. Cümhuriyyət dövründə qəbul edilmiş qanun, qərar və sərəncamlar, hökumət aktları, Parlamentin iclaslarının stenoqrammaları, daxili və xarici siyasət, ordu quruculuğu tədbirlərini əks etdirən sənəd və materiallar kütləvi tirajla xalqımızın istifadəsinə verildi. Çap olunmuş bu materiallar demokratik cəmiyyət qurmaq, iqtisadiyyatı inkişaf etdirmək, mədəniyyət, xüsusən də təhsil sahəsində görülmüş böyük işlər haqqında dolğun təəsürat yaradır.

Ümumilli lider Azərbaycan Xalq Cümhuriyyəti liderlərinin o dövrdəki fəaliyyətlərini yüksək dəyərləndirmiş, onların xidmətlərini dövlət səviyyəsində etmişdir. Ulu öndərin aşağıdakı fikri bu baxımdan xarakterikdir: **"Bu gün - bu bayram günü biz Azərbaycanda ilk demokratik respublikanın qurulmasında, yaranmasında göstərdiyi xidmətlərə görə Məmmədəmin Rəsulzadəyə, Əlimərdan bəy Topçubaşova, Fətəli xan Xoyskiyə, onların silahdaşlarına bir daha öz minnətdarlığımızı, təşəkkürümüzü bildiririk. Onların gördüyü işlər Azərbaycan xalqının bu günü üçün çox böyük əhəmiyyət kəsb edir. Onların fəaliyyəti bizim üçün həmişə əziz olacaqdır. Onların xatirəsi bizim qəlbimizdə daim yaşayacaqdır"** [4, s.7].

1998-ci ilin yazında Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinin respublika miqyasında təntənə ilə qeyd edilməsi, silsilə tədbirlər, konfrans və toplantılar keçirilməsi dövlət başçısının bu tarixi hadisəyə yüksək qiymət verməsinin növbəti təzahürü oldu. Heydər Əliyev 1998-ci il mayın 26-da Milli Məclisin Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş təntənəli iclasında iştirak etdi və nitqində Şərqdə ilk demokratik respublika elan olunmasını ***"xalqımızın gələcəyinin, müstəqilliyinin, azadlığının, suverenliyinin təməlini qoyulması"*** kimi yüksək qiymətləndirmiş, bu dövləti yaradanları isə "qəhrəmanliq nümunələri göstərən insanlar" adlandırmışdır: **"Azərbaycan Xalq Cümhuriyyəti ... XX əsrdə Azərbaycan xalqının həyatında tarixi bir mərhələ olub və xalqımızın gələcəyinin, müstəqilliyinin, azadlığının, suverenliyinin təməlini qoyubdur. Məhz buna görə də Azərbaycanın bütün vətəndaşları – biz Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını, onun fəaliyyətini və xalq cümhuriyyətini yaradanları, o dövrdə qəhrəmanlıq nümunələri göstərən insanları böyük minnətdarlıq hissi ilə yad edirik"** [5, s.378-379].

2000-ci il dekabrın 29-da yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində ümummilli lider Azərbaycan dövlətinin minillikləri əhatə edən tarixində Xalq Cümhuriyyəti dövrünü ən parlaq səhifələrdən biri kimi qiymətləndirmişdir:

**“Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı addımları başa çatdıra bilməsə də, onun qısa müddərdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır”** [6, s.296].

AXC-nin görkəmli xadimləri Məmmədəmin Rəsulzadə, Fətəli xan Xoyski, Əlimərdan bəy Topçubaşov, Nəsib bəy Yusifbəyov və digərlərinin fəaliyyətləri Heydər Əliyev tərəfindən yüksək qiymətlədirilmiş, o zamankı ağır şərtlərdə böyük fədakarlıq göstərdikləri xüsusi vurğulanmışdır. Ümummilli lider 2001-ci il mayın 26-da Respublika sarayında Azərbaycanın milli bayramı – Respublika günü münasibətilə təntənəli yığıncaqda nitqində AXC-nin yaradıcılarının xidmətlərini yenidən yüksək qiymətləndirmişdir: **“Azərbaycanın istiqlaliyyətini elan edənlər, Xalq Cümhuriyyətini qurub yaradanlar və ona sona qədər sadiq olan insanlar Azərbaycanın ən mötəbər, ən görkəmli insanlarıdır. ... Onlar Azərbaycan xalqının tarixinə böyük və dəyərli şəxsiyyətlər kimi daxil olmuşlar”** [7, s.186].

Heydər Əliyev xüsusilə Azərbaycan Xalq Cümhuriyyətinin ilk baş naziri Fətəli xan Xoyskinin dövləçiliyimizi möhkəmlənirmək sahəsində fəaliyyətini yüksək qiymətləndirmişdir: **“O ağır və çətin dövrdə ilk Azərbaycan Demokratik Respublikasının baş naziri vəzifəsini Azərbaycanın görkəmli oğlu Fətəli xan Xoyski öz üzərinə götürmüş, bu vəzifəni layiqincə həyata keçirmiş və xalqımız qarşısında böyük xidmətlər göstərmişdir”** [8, s.423].

Ulu öndərin imzaladığı 18 dekabr 1995-ci il tarixli sərəncamla Fətəli xan Xoyskinin anadan olmasının 120 illiyi təntənəli surətdə qeyd olunmuşdur. Yenə də onun diqqət və qayğısı sayəsində Tbilisidə Fətəli xan Xoyskinin qəbrinin üzəri götürülmüş, ətrafı abadlaşdırılıb layiqli şəklə salınmış, məzarı üzərində büstü ucaldılmış, 1996-cı il martın 14-də ulu öndər Gürcüstanda rəsmi səfərdə olarkən həmin abidənin açılışında iştirak etmişdir [8, s.423]. Bakıda yaşadığı binanın önünə Fətəli xan Xoyskinin xatirə lövhəsi vurulmuşdur.

Azərbaycan Respublikasının Prezidentinin tapşırığı ilə 1990-cı illərin əvvəllərindən etibarən hər il Respublika günü Azərbaycanın Türkiyədə, Fransada, Gürcüstanda olan səfirləri Məmməd Əmin Rəsulzadənin, Əlimərdan bəy Topçubaşovun, Fətəli xan Xoyskinin qəbirlərini ziyarət edirlər [4, s.7]. Onların məzarları üzərinə əklillər qoyur, gül-çiçək düzür, onların xatirəsinə Azərbaycan xalqının, dövlətinin hörmət və ehtiramı ifadə edirlər. Bu ənənəni ulu öndər özü başlatmışdır. O, 1993-cü il dekabrın 19-da Azərbaycan Respublikasının Prezidenti kimi Fransaya ilk rəsmi səfəri zamanı Əlimərdan bəy Topçubaşovun və onun ailə üzvlərinin, Ceyhun bəy Hacıbəylinin və oğlu Timuçinin məzarlarını ziyarət edərək əklil qoymuşdu [9, s.569-570].

Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti kimi böyük diqqət və qayğısının nəticəsi idi ki, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədri, Paris Sülh

konfransında Azərbaycan nümayəndə heyətinin başçısı, mühacirət dövründə Fransada yaşamış və Parisdə dəfn olunmuş Əlimərdan bəy Topçubaşovun xatirəsinin əbədiləşdirilməsi üçün Fransa rəsmi dairələri təşəbbüs göstərdilər. 1998-ci il iyunun 3-də Fransa Xarici işlər nazirliyinin və Paris şəhəri bələdiyyəsinin yardımı ilə Əlimərdan bəy Topçubaşovun Parisdə yaşadığı Dekamp küçəsi, 27 saylı binanın divarına xatirə lövhəsi vuruldu. Heydər Əliyev bu addımı yüksək qiymətləndirdi və dərhal Fransa prezidenti Jak Şiraka minnətdarlıq məktubu ünvanladı [10, s.236]. Bu hadisədən bir ay keçdikdən sonra ulu öndər 1998-ci il iyulun 14-də "Hyatt-Recens - Naxçıvan" mehmanxanasında Fransanın milli bayramı – Bastiliyanın alınması günü münasibətilə Fransanın Azərbaycandakı səfirliyinin təşkil etdiyi rəsmi qəbulda söylədiyi nitqində yenidən bu məsələyə toxundu: **"Mən Əlimərdan bəy Topçubaşovun xatirəsinə göstərilən hörmətə və onun Parisdə yaşamış olduğu evə xatirə lövhəsi vurulmasına görə Fransa hökumətinə təşəkkürümü bildirirəm"** [11, s.263].

Qeyd etmək vacibdir ki, bu, bir zamanlar siyasi mühacirlərin sıx toplaşdığı Parisdə mühacir hökumət başçılarından birinin adını əbədiləşdirən ilk xatirə lövhəsi idi. Bu tarixi hadisə ilə əlaqədar Əlimərdan bəyin nəvəsi Zərifə xanım 1999-cu il martın 21-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə təşəkkür məktubu ünvanlamış və çox maraqlı bir məqama da toxunmuşu. Ulu öndərin Azərbaycanda birinci dəfə rəhbərlikdə olduğu zaman Əlimərdan bəy Topçubaşovun oğlu Ələkbər bəyi Bakıya dəvət etdiyinə görə də ayrıca minnətdarlığını ifadə etmişdi [9, s. 570]. Lakin bu dəvəti aldığı zaman 81 yaşında olan Ələkbər bəy Topçubaşi vəfat etdiyindən onun Azərbaycana gəlməsi baş tutmamışdı.

1998-ci il iyunun 26-da Respublika sarayında Azərbaycan Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitqində Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyəti dövründə silahlı qüvvələr yaradılmasına və ordu quruculuğuna böyük əhəmiyyət verildiyini, qayğı göstərildiyini xüsusi vurğulamışdır: **"Xalq Cümhuriyyətinin ... tarixini bu gün vərəqləyərkən, ordu quruculuğu sahəsində nə qədər dəyərli işlər gördüyü doğrudan da böyük hörmət hissi doğurur"** [12, s.84]. Ulu öndər Hərbi nazir Səməd bəy Mehmandarov, Hərbi nazirin müavini Əliağa Şıxlinski, Baş qərargah rəisi Məmməd bəy Sulkeviçin adlarını ehtiramla xatırlamış, onlar haqqında milli ordu quruculuğu sahəsində ***"çox işlər görmüşlər"*** [12, s.84] – deyə bəhs etmişdir.

Azərbaycanda bu gün fəaliyyət göstərən müxtəlif hakimiyyət orqanlarının, nazirliklərin yaranmasının tarixi köklərinin 1918-20-ci illərlə bağlı olması haqqında Heydər Əliyevin fikirləri də böyük əhəmiyyətə malikdir. Ulu öndərin bu məsələlərdə prinsipial mövqeyi müstəqil Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinin, Milli Ordumuzun, Daxili İşlər Nazirliyinin, digər hakimiyyət strukturlarının yaranması tarixlərinin dəqiqləşdirilməsində, tarixi ədalətin bərpa edilməsində mühüm rol oynamışdır.

Ümumilli lider Azərbaycanda ilk demokratik respublika hökumətinin fəaliyyətinin bugünkü baxımdan istənilən səviyyədə təşkil olunmaması səbəblərini belə izah etmişdir: **"Azərbaycan Demokratik Respublikası 23 ay yaşamışdır. Bu müddətdə 5 dəfə hökumət qurulmuşdur. Yaranmış hər bir hökumət daxili ziddiyyətlər, çəkişmələr nəticəsində və**

**şübhəsiz ki, xarici qüvvələrin təsiri altında istefa verməyə məcbur olmuş, yenidən yaranan hökumət yenə də istefa vermiş və beləliklə də bu ağır şəraitdə demokratik respublikanın dövlət, hökumət orqanları istənilən fəaliyyəti göstərə bilməmişlər"** [4, s.7].

Heydər Əliyev Azərbaycanda ilk demokratik respublikanın süqutu səbəblərinə də müdrikliklə aydınlıq gətirmişdir: **"bir tərəfdən Rusiyada artıq hakimiyyəti gücləndirən kommunist-bolşevik hakimiyyəti Rusiyanın keçmiş ərazisinin hamısına hakim olmaq istəyirdi. İkinci tərəfən də, Azərbaycanın daxilində çox ziddiyyətli proseslər gesirdi. Parlamentdə ayrı-ayrı partiyalar bir-biri ilə rəqabət, hakimiyyət uğrunda mübarizə aparırdı. Şübhəsiz ki, bunlar da Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini zəiflədirdi"** [13, s.395].

Bununla belə, o zamankı mürəkkəb və ziddiyyətli dövrdə Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları yüksək vətəndaşlıq mövqeyi nümayiş etdirmiş, bütün çətinliklərə sinə gərərək müstəqil dövlət quruculuğuna şərəflə xidmət etmişlər. Heydər Əliyevin qeyd etdiyi kimi, **"Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, istiqlal bəyannaməsinin elan olunması böyük zəka, uzaqgörənlik, cəsarət, iradə, qəhrəmanlıq tələb edirdi. Bizim dəyərli siyasi xadimlərimiz o gün ... bu dəyərli addımı atdılar. ... Onlar həqiqətən vətəndaşlıq şücaəti göstəriblər, həqiqətən öz xalqı, milləti qarısında böyük qəhrəmanlıq nümunələri göstəriblər"** [13, s.391,394].

Uli öndərin siyasətini bütün sahələrdə uğurla davam etdirən Azərbaycan Respublikası Prezidenti İlham Əliyev də Azərbaycan Xalq Cümhuriyyəti qurucularının fəaliyyətini yüksək qiymətləndirmişdir. Onun 2017-ci il mayın 16-da imzaladığı "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" sərəncamda bu çox aydın ifadə edilmişdir: ***"Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi, Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü"*** [14].

Cümhuriyyət qurucularının çox böyük xidməti, ölkəmizin sonrakı tarixi inkişafına, mövcudluğunu davam etdirməsinə zəmin yaratmaları olmuşdur. Prezident İlham Əliyevin yuxarıda bəhs edilən sərəncamında bu cəhət xüsusi vurğulanmışdır: ***"Dünya birliyi tərəfindən tanınmış Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində Azərbaycanın beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayındakı bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı"*** [14].

Azərbaycan Xalq Cümhuriyyəti Sovet Rusiyasının hərbi təcavüzü nəticəsində qarşısına qoyduğu böyük məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun xalqımızın yaddaşında, insanların şüurlarında bərqərar etdiyi müstəqillik ideyası kommunist ideologiyasının ciddi-cəhdlə yayıldığı dövrdə unudulmadı. Azərbaycan xalqı Sovet dövründə milli dövlətçilik atributlarının bir çoxunu qoruyub saxlaya bildi. Xüsusən ümummilli lider Heydər Əliyevin respublikamızda ilk rəhbərliyi dövründə uğurla gerçəkləşdirdiyi müdrik və uzaqgörən siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsi və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı. Bu proseslərin məntiqi nəticəsi 1991-ci ildə Azərbaycan Respublikasının müstəqilliyini yenidən bərpa etməsi, dünya birliyində öz layiqli yerini tutması oldu.

## Ədəbiyyat


1. Əliyev H.Ə. Milli bayram - Respublika günü münasibətilə təntənəli yığıncaqda nitq. 26 may 1996-cı il, Müstəqilliyimiz əbədidir. K.6, Bakı: Azərnəşr, 1998, s.307-320.
2. Əliyev H.Ə. Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında Sərəncam. 30 yanvar 1998-ci il, Azərbaycan Cümhuriyyəti. Bakı: “Elm”, 1998, 336 s.
3. Əliyev H.Ə. Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. 22 fevral 1998-ci il, https://e-qanun.az/framework/4998
4. Əliyev H.Ə. Azərbaycanın milli bayramı – Respublika günü münasibətilə təntənəli yığıncaqda nitq. 27 may 1997-ci il, Müstəqilliyimiz əbədidir. K.10, Bakı: Azərnəşr, 2002, s.5-27.
5. Əliyev H.Ə. Azərbyacan Xalq Cümhuriyyətinin 80 illik yubileyi münasibətilə Milli Məclisin təntənəli iclasında nitq. 26 may 1998-ci il, Müstəqilliyimiz əbədidir. K.15, Bakı: Azərnəşr, 2005, s.378-383.
6. Əliyev H.Ə. Yeni 2001-ci il, yeni əsr və üçüncü minilli münasibətilə Azərbaycan xalqına müraciət. 29 dekabr 2000-ci il, Müstəqilliyimiz əbədidir. K.31, Bakı: Azərnəşr, 2010, s.283-360.
7. Əliyev H.Ə. 28 may - Respublika gününə həsr olunmuş təntənəli mərasimdə nitq. 26 may 2001-ci il, Müstəqilliyimiz əbədidir. K.34, Bakı: Azərnəşr, 2011, s.183-209.
8. Əliyev H.Ə. Tbilisi Nəbatat bağında Fətəli xan Xoyskinin abidəsinin açılışı mərasimində nitq. 9 mart 1996-cı il, Müstəqilliyimiz əbədidir. K.5, Bakı: Azərnəşr, 1998, s.421-424.
9. Həsənli C.P. Tarixi şəxsiyyətin tarixi: Əlimərdan bəy Topçubaşov. Bakı: Azərbaycan Diplomatik Akademiyası, 2013, 588 s.
10. Əliyev H.Ə. Fransa Respublikasının prezidenti zati-aliləri cənab Jak Şiraka məktub. 13 iyul 1998-ci il, Müstəqilliyimiz əbədidir. K.16, Bakı: Azərnəşr, 2005, s.236.

11. Əliyev H.Ə. Fransanın milli bayramı – Bastiliyanın alınması günü münasibətilə Fransanın Azərbaycandakı səfirliyinin təşkil etdiyi rəsmi qəbulda nitq. 14 iyul 1998-ci il, Müstəqilliyimiz əbədidir. K.16, Bakı: Azərnəşr, 2005, s.262-265.
12. Əliyev H.Ə. Azərbaycan Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 1998-ci il, Müstəqilliyimiz əbədidir. K.16, Bakı: Azərnəşr, 2005, s.81-97.
13. Əliyev H.Ə. Azərbyacan Xalq Cümhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə nitq. 27 may 1998-ci il, Müstəqilliyimiz əbədidir. K.15, Bakı: Azərnəşr, 2005, s.389-412.
14. Əliyev İ.Ə. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında sərəncam. 16 may 2017-ci il, http://milliarxiv.gov.az/az/axc-100-100